UOT 94 (479. 24)

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANDA SAHİBKAR KƏNDİNDƏ ÜZÜMÇÜLÜKDƏ ƏMTƏƏ-KAPİTALİST MÜNASİBƏTLƏRİNİN İNKİŞAFI

**F.E.BAXŞƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***baxsaliebfazil@yahoo.com***

*Məqalədə XX əsrin əvvəllərində Azərbaycan sahibkar kəndində əmtəə istehsalının vacib xüsusiyyətlərindən biri bəy-mülkədar və digər sahibkar şəxslərin təsərrüfatlarının getdikcə daha burjua-kapitalist təsərrüfatları xarakteri daşıması, istehsal olunan müxtəlif kənd təsərrüfatı məhsullarının məcmusunda onların xüsusi çəkisinin artmasından bəhs olunur. XX əsrin əvvəllərində Azərbaycan sahibkar kəndində istehsalın ən müxtəlif sahələrində əmtəə-kapitalist münasibətlərinin inkişafını sürətləndirən amillərdən biri də üzüm əkini sahələrinin əvvəlki illərdən fərqli olaraq daha intensiv becərilməsi idi. Bu dövrdə sahibkar kəndində əmtəə-kapitalist istehsalının ən əsas yekunu bəzi sahələrdə əmtəə istehsalı prosesinin get-gedə daha çox sənaye xarakteri daşımağa başlaması oldu.*

**Açar sözlər:** kapitalist, inkişaf, kənd, Şimal

XIX əsrin sonlarında sahibkar kəndində təsərrüfatın daha bir gəlirli sahəsi – üzümçülükdə əmtəə-kapitalist münasibətlərinin yaranması və inkişafı faktları olduqca çoxdur. Qeyd etmək lazımdır ki, üzümçülük və onunla bağlı olan şərabçılıq Zaqafqaziya dəmir yolu xəttinin istifadəyə verilməsinə qədər əsasən natural xarakter daşıdığı üçün məhsulun çox hissəsi şəxsi istehlak xarakterində idi. Azərbaycanda əhalinin böyük əksəriyyətinin müsəlman-azərbaycanlılardan ibarət olduğunu nəzərə alaraq XIX əsrin 80-ci illərinin ortalarına qədər Azərbaycan sahibkar kəndində üzümçülüyün az yayılmasından, onunla bağlı şərab və digər məhsullara tələbatın olmadığını bildirməliyik (5, 29). Yalnız dəmiryol xəttilə daşınmaların ucuzluğu və imperiya, dünya bazarlarında bu məhsula tələbatın indi bir qədər asan ödənilməsi imkanları təsərrüfatın bu sahəsinə ciddi təkan vermiş oldu (10, 34).

Əgər Azərbaycan kəndində bütövlükdə 1887-ci ildən cəmi 3,3 min desyatin üzümlük sahəsi vardısa, 1914-cü ildə bu rəqəm 34,6 minə çatdı və bu rəqəmin təxminən yarıdan bir qədər azı sahibkar kəndlisi, xüsusilə də müxtəlif miqyaslı mülkədar malikanələrinin payına düşürdü (24, 92-95). XX əsrin əvvəllərində üzümçülük təsərrüfatlarından əldə edilən orta illik gəlir 7-7,5 milyon rubla çatırdı. Üzümçülük sahəsinə ticarət-sənaye kapitalının nüfuz

etməsi ilk addımlarını XIX əsrin ortalarından başlasa da, Bakı-Tiflis dəmiryol xəttinin istifadəyə verilməsilə bu sahədə ilbəil böyük addımlar atılmasına imkan yaratdı.

İlk vaxtlar Azərbaycanın üzümçülük plantasiyalarının yerləşdiyi qəzalarda məhsulun çox hissəsi Gürcüstandan gəlmiş alıcılar tərəfindən satın alınırdı. Tədricən gürcü tacirlər nəinki həmsərhəd, hətta bir qədər kənarda olan Qarabağ və Şirvan mülkədarlarının üzüm plantasiyalarındakı məhsulun əsas alıcılarına çevrilirdilər. Şuşa, Şamaxı, Göyçay və digər qəzalarda hər il sahibkar kəndlərində toplanmış məhsuldan 100 minlərlə vedrə şərab hazırlanaraq aparılırdı (11, v. 262).

Belə bir cəhəti də qeyd etməliyik ki, üzümçülük və şərabçılıq məhsulları istehsalının əsasən mülkədar və varlı-qolçomaq təsərrüfatlarında mövcud olmasının müxtəlif səbəbləri var idi. Belə ki, XX əsrin əvvəllərində xəzinəyə ödənilən vergilər, becərilmə, xəstəliklərlə mübarizə və digər zəruri işlərə görə bir desyatin üzümlük bağı təxminən 100-150 manat xərc aparır və alınan məhsulun reallaşmasından sonra qalan pul xalis gəliri təşkil edirdi. Lakin birdən-birə yoxsul və ortabab sahibkar kəndlinin azacıq da olsa gəlir qazanmaq üçün əvvəlcədən bu qədər pula malik olması qeyri-mümkün idi. Hətta buna cəhd edənlər və ya arzu edənlər tapılırdısa, onda onlar mütləq tacir, alverçi, vasitəçi, həmçinin öz varlı həmkəndlilərinin maliyyə əsarətinə düşməli olurdular. Nəzərə çatdırırıq ki, sahibkar kəndli bu şəxslərdən üzüm məhsulunun bir pudu üçün 2 manat və ya 1,2 manat pul ala bilirdilər (19, 17).

XIX əsrin sonlarında Azərbaycanda kənd təsərrüfatının, eləcə də üzümçülük təsərrüfatının inkişafına lazımi maliyyə köməyi göstərilməsi işinin dövlət səviyyəsində təşkil olunmadığı, daha dəqiq desək, Rusiyanın mərkəzi quberniyalarında kəndli Bankı fəaliyyət göstərdiyi halda, Zaqafqaziyada onun filiallarının hələ fəaliyyəti təşkil olunmadığı halda, sahibkarların dövlət-kredit təşkilatlarının yaradılması və onların yerlərdə istehsalçılara maliyyə yardımı göstərilməsi işinin təşkili haqqında imperiya orqanlarına müraciətləri isə (20, 36) bir qayda olaraq, cavabsız qalırdı.

Beləliklə, sahibkar kəndində xırda üzümçülük təsərrüfatları sahiblərinin fəaliyyəti maliyyə çətinlikləri və borcların ilbəil artması üzündən məhdudlaşırdı. Üzüm məhsulunun alınması və şərab hazırlanması işi ticarət dairələri nümayəndələrinin əlinə düşürdü. Bu isə o demək idi ki, üzümçülük və şərabçılıq əvvəlki istehlak və ya kiçikmiqyaslı istehsal xarakterini itirib iri miqyaslı emal-sənaye istehsalı xarakteri alırdı. Yerlərdə sahibkar kəndlərində ən çox üzümçülük təsərrüfatlarının yerləşdiyi qəzalarda, bəzən bir qəzada eyni vaxtda bir neçə kəndlərdə müxtəlif emal-istehsal gücünə malik şərabçılıq zavodları təşkil olunurdu (12, v. 24).

Qeyd etdiyimiz kimi, bəzi qəzalarda birbaşa kəndlilərdən üzüm məhsulunu dəyər-dəyməzinə alan bir neçə zavod fəaliyyət göstərirdi. Bu baxımdan Şuşa, Yelizavetpol (indiki Gəncə), Göyçay qəzaları daha çox fərqlənirdi. Göyçay qəzasında fəaliyyət göstərən 37 şərabçılıq zavodu ildə böyük həcmdə şərab məhsulları istehsal edirdi (9, 226-228).

Bunu da qeyd etməliyik ki, üzümlük bağlarını satın alaraq xüsusi mülkiyyətçiyə çevrilən və bununla da sahibkar kəndinin bir hissəsinə, bir üzvünə çevrilən xüsusi mülkiyyətçi şəxslər arasında azərbaycanlı, müsəlman etiqadından olanlar məlum səbəblər üzündən olduqca az idi. Forer, Soqomonov, Qummel qardaşları, A.Plemyannikov, A.Qolitsın, Q.Arafelov və bir çox başqaları idi (13, v. 23). Bəzən də belə olurdu ki, belə sahibkarların bir və ya bir neçə qəzanın müxtəlif kəndlərində eyni vaxtda bir neçə şərab məhsulları istehsal edən müxtəlif zavodları olurdu.

Azərbaycan sahibkar kəndində, mülkədar malikanələrindəki irimiqyaslı üzümlük bağları istisna olmaqla, kəndlilərin istifadəsində olan belə bağların sahəsi son dərəcə qeyri-bərabər idi. Sahibkar kəndlilərinin təqribən 12 mindən bir qədər çox olan üzümçülük təsərrüfatlarının 82 %-dən çoxunun plantasiyaları 0,2-1 desyatin arasında dəyişirdi. Sahibkar kəndində ayrı-ayrı qəzalar üzrə cəmi 500-dən çox üzümçülük təsərrüfatının 2-7 desyatin (16,8 %), yalnız 0,15 %-nin (21-22 təsərrüfat) 10-43 desyatin arası üzümlük sahəsi olmuşdu (12, v.42).

Lakin XIX əsrin sonu-XX əsrin əvvəlləri və nisbətən sonrakı dövrlərə aid statistik məcmuələrdə üzümlük sahələrinin hansı kateqoriyalarının varlı və ortabab sahibkar hesab edilməsi məsələsi ətrafında bəzi fikir ayrılıqları olmuşdur. Məsələn, Şamaxı və Göyçay qəzalarında həm xəzinə və həm də sahibkar kəndlərində kəndli üzümçülük təsərrüfatlarının fəaliyyətini tədqiq etmiş Konduralov 1 desyatinə yaxın – 1,1 desyatin sahəsi olan üzümlük təsərrüfatlarını varlı və əmtəə-ticarət xarakterli hesab edirdi (27, 224). Başqa bir müəllif İ.Seqal bu fikirlə qismən razılaşırdı (28, 17-18). Digər müəlliflər qrupu isə belə təsərrüfatlara 2 və daha artıq desyatin üzümlük təsərrüfatı olan sahibkarları aid edirdi (6, 537).

Burada nəzəri cəlb edən əsas cəhət varlı sahibkar kəndlilərin və qolçomaqların 1895-ci il hesablamalarına görə üzümçülük təsərrüfatlarının sahiblərinin 8,4 %-ni təşkil etdikləri halda bütün üzümlük sahələrinin 38,5 %-nə və ya 8350 desyatininə malik olmaları idi (26, 162).

Bu bir daha göstərirdi ki, üzümçülük təsərrüfatlarının sahəsi artdıqca, burada istehsal edilən əmtəəlik məhsulun miqdarı bir o qədər çox olurdu.

Azərbaycanın sahibkar kəndində XIX əsrin sonunda 11 min üzümlük sahəsi təxminən 1000-dən bir qədər çox mülkədar, bəy, sənayeçi və digər sahibkar şəxslərə aid idi və bu təsərrüfatların hər birinin payına orta hesabla 10-12 desyatin üzümlük sahəsi düşürdü. Bu kateqoriyanın içərisində də böyük əksəriyyət sahibkarların 7 desyatin və bir qədər artıq, təxminən ¾ hissənin 10-12 desyatin, yalnız kiçik bir qrupun onlarla və yüzlərlə desyatin belə sahələri qeydə alınmışdı (25, 6-7).

Sonrakı illərdə bu rəqəmlərdə dəyişiklik digər qonşuların və mülkədarların üzümlüklərinin satın alınması hesabına irimiqyaslı üzümlük sahiblərinin sayının azalması idi. Məsələn, 1916-cı il Bakı quberniyasında 100 desyatindən çox üzümlük sahəsi olan sahibkarların sayı 50-dən bir az çox idi (25, 7). Bir daha qeyd etmək yerinə düşərdi ki, irimiqyaslı mülkədar-sahibkar üzümçülk təsərrüfatlarında bitkiyə qulluq, torpağın becərilməsində səmərəli aqrotexniki üsullardan istifadə, məhsulun ilkin emalı imkanları xırda sahibkar

təsərrüfatlarına nisbətən böyük olduğuna görə, onların gəlirləri də çox olurdu. Bu, həm də ondan irəli gəlirdi ki, tək üzümçülük təsərrüfatı, məhsulun ilkin emalı, ondan şərab və digər məhsullar hazırlamaq imkanı olmadıqda, əldə edilən gəlir o qədər də yüksək olmurdu. Bu, yalnız varlı-qolçomaq və mülkədar təsərrüfatların imkanları daxilində idi. Buna görə də XX əsrin əvvəllərində, xüsusilə də dünya müharibəsi ərəfəsində məhz emal prosesi imkanlarına malik sahibkar təsərrüfatlarında 1 desyatin üzümlük sahəsindən alınan məhsulla təxminən 150-200 vedrə şərab istehsal etmək (1 vedrə təxminən 1,2-1,5 manat qiymətində idi) və 300-400 manat gəlir qazanmaq mümkün idi (1, v.104).

XX əsrin əvvəllərində, demək olar, hər bir il üzümçülük və şərabçılığın inkişafı baxımından sahibkar kəndində böyük nəticələrin əldə olunduğu dövr hesab olunur (23, 21). Təkcə 1910-cu ildə Azərbaycan qəzalarında üzümçülüyün və şərabçılığın inkişafında əldə edilmiş nəticələrin nəzərdən keçirilməsi bizə bəzi müqayisə və ümumiləşdirmələr aparmağa imkan verir. Belə ki, bəhs olunan ildə Azərbaycanın 13 qəzasında və 3 dairəsində üzümçülük və şərabçılıqla 10 mindən bir qədər çox təsərrüfatda məşğul olunduğu qeydə almışdır. Bunlardan 8 mini nisbətən orta və xırda miqyaslı kəndli, 2 mindən çoxu isə mülkədar, tacir və kənd burjuaziyası təbəqəsinə məxsus sahibkar təsərrüfatları olmuşdu (8, 273).

Şərabçılıqla məşğul olunan sahibkar kəndli təsərrüfatları əsasən Şamaxı, Yelizavetpol, Şuşa qəzalarında yerləşirdi (24, 21). Belə təsərrüfatların sayına görə Qazax (900), Şuşa qəzası (718), Şamaxı (1045), Yelizavetpol (1483) qəzaları və Naxçıvan qəzası (1413) öndə gedirdi. Bu təsərrüfatların təqribən yarıdan bir qədər azı sahibkar kəndlilərin payına düşürdü. Sahibkar-mülkədar, tacir, kənd burjuaziyasını təşkil edən digər şəxslərin üzümçülük təsərrüfatlarının torpaq sahələri müxtəlif olduğu kimi, onlardakı üzümçülük təsərrüfatlarının sayı da müxtəlif idi (7, 538).

Hər iki Azərbaycan quberniyası üzrə 2092 sahibkar təsərrüfatında üzümçülük və şərabçılıqla məşğul olunduğu qeydə alınsa da, bunlar daha çox Şuşa (1206), Yelizavetpol (436) və Zəngəzur (1601) qəzalarında idi. Lakin quberniyalardakı üzümlük sahələrinin qəzalar və təsərrüfatlar arasında bölünməsinin müqayisəsi bir qədər fərqli nəticələr göstərir. Məsələn, Şuşa qəzasında 1206 sahibkar və mülkədar təsərrüfatında üzümçülüklə məşğul olunduğu halda, qəzada sahibkarların üzümlük sahəsi cəmi 884 desyatin idi və bu o demək idi ki, sahibkar təsərrüfatların hər birinə orta hesabla 1,39 desyatin torpaq sahəsi düşürdü. Qəzada istehsal olunmuş 3840 vedrə şərab isə quberniya üzrə 3-cü nəticə demək idi (29, 126-129).

Yelizavetpol qəzasında üzümçülüklə məşğul olunan 1732 desyatin sahibkar-mülkədar təsərrüfatının payına isə orta hesabla 3,5 desaytin sahə düşürdü. Lakin qəzadakı mülkədar sahibkar üzümçülük təsərrüfatlarının sahəsinə görə qəza birinci olmasa da, istehsal olunan şərab məhsulunun həcminə görə birinci yerdə idi və (196 600 vedrə) digər qəzaları xeyli geri qoyurdu. Bir mülkədar təsərrüfatına düşən üzümlük sahəsinin həcmi baxımından ilk yerdə Quba qəzası dayanırdı. Belə ki, qəzanın 5 sahibkar üzümçülük təsərrüfatının hər birinə orta hesabla 31 desyatin üzümlük sahəsi düşürdü. Qəzada Şuşa

qəzasında olduğu qədər (1550 desyatin) üzümlük sahəsi olduğu halda daha çox üzüm toplanmış (13365 puda qarşı 15700 pud) və daha çox şərab (3840 vedrəyə qarşı 10600 vedrə) istehsal edilmişdi (29, 126-129).

Daha bir maraqlı cəhət. Ərəş qəzasında cəmi 8 mülkədar – sahibkar təsərrüfatında 56 desyatin sahədə üzümçülüklə məşğul olunmasına baxmayaraq (Şuşa qəzasında 884 desyatin), 3960 vedrə şərab (Şuşa qəzasında 3840 vedrə) məhsulu istehsal edilmişdi (29, 128-129).

Beləliklə, kifayət qədər orta və iri həcmdə üzümlük sahələrinə malik olan mülkədar-sahibkarlar, habelə varlı-qolçomaq kəndlilər indi öz təsərrüfatları daxilində üzümçülükdə şərab və digər məhsullar istehsalını genişləndirməyə çalışır, daha gəlirli və məhsuldar texnologiyalardan istifadə edirdilər. XX əsrin əvvəllərində artıq 2 sahibkar – mülkədarın 1-nin təsərrüfatında şərab və digər məhsulların istehsalı üçün lazımi qurğu və şərait var idi. XX əsrin əvvəllərində Azərbaycanda 800-dən çox şərab zavodu fəaliyyət göstərirdi (29, 130-131).

Belə zavodların fəaliyyəti artıq sənaye istehsalı xarakterində idi və onların işində müəyyən sayda muzdlu işçilərin, lazımi mütəxəssis kadrların əməyindən istifadə etmədən lazımi səmərə əldə etmək çətin idi.

Yelizavetpol qəzasında cəmi 1 desyatin üzümlük bağı olan Forer qardaşlarının get-gedə satınalma yolu ilə öz təsərrüfatlarını genişləndirməsi nəticəsində 1900-cu ildə 2430 desyatin, 1909-cu il ərəfəsində 3 min desyatin torpağında 500 desyatindən çox üzümlük bağı və kifayət qədər şərab və digər spirtli məhsullar emal və istehsal etmək üçün çoxlu zavodları var idi (29, 131-133).

Beləliklə, 30-dan çox şərabsaxlama yeri, emal və şərab çəkmə aparatları olan Forer qardaşları firması tək öz təsərrüfatlarının xam və hazır məhsulu ilə deyil, həmçinin qonşu sahibkarların məhsulu ilə də ticarət edirdilər. Məsələn, XX əsrin ilk illərində Forer qardaşları öz təsərrüfatları daxilində 60 min vedrə şərab istehsal etmişdilərsə, təxminən 40 min vedrəyə yaxın şərabı da qonşu təsərrüfatlardan sonradan baha satmaq üçün satın almışdılar. Sonrakı illərin hər birində Forer qardaşları firmasının illik gəliri 1-1,2 milyon manatdan çox olurdu (12, v.24).

Məhz təsərrüfat fəaliyyətinin bazarın tələbatına uyğunlaşması və əmtəə-kapitalist münasibətlərinin bu cür sürətli inkişafı nəticəsində Forer qardaşları firması təkcə öz təsərrüfatlarında 3 şərab, 1 spirt, konyak və pivə zavodlarına malik idi və təkcə şərab məhsulu artıq 500 min vedrə idi. Artıq müharibə illərində firmanın gəliri 3 milyon manat idi (2, v.7).

Eyni sözləri, təxminən «Forer qardaşları firması» kimi üzümçülük və şərabçılıqda əmtəə-kapitalist münasibətlərinin inkişafı baxımından eyni göstəricilərə malik olan «Qummel qardaşları» firmasının təsərrüfat fəaliyyəti haqqında da demək olar. Əvvəllər Yelizavetpol qəzasında 10 desyatin üzümlük sahəsi olan firma ilbəil satınalma yolu ilə öz üzümçülük təsərrüfatını genişləndirmiş, 4 şərab, 1 spirt, 2 konyak və digər məhsulları istehsal edən başqa zavodlar da açmışdı (30, 143).

Firmanın üzümlük bağları artıq Azərbaycanın digər qəzalarına da yayılmışdı. Bundan başqa firmanın işçiləri üzümçülük təsərrüfatlarının yayıldığı digər qəza və kəndləri gəzərək hazır məhsulun alışını təşkil edirdilər. Firma-

nın indi təkcə Yelizavetpol qəzasından başqa, Bakı quberniyasında Bakı-Tiflis dəmiryol xətti üzərində yerləşən Kürdəmir və Bərgüşat kəndləri stansiyaları yaxınlığında da şərab zavodu fəaliyyət göstərirdi. Firmanın müxtəlif məhsulları artıq Fransa, İtaliya və digər Avropa ölkələrində satış yarmarkalarında iştirak edərək müxtəlif mükafatlar qazanırdı. Bundan başqa imperiyanın bir neçə iri şəhərində firmanın ticarət mağazaları uğurlu fəaliyyət göstərirdi (31, 63).

Eyni fikri, yəni üzümçülük təsərrüfatında işlərin get-gedə daha çox ticarət-sənaye xarakteri almasını başqa bir sahibkar knyaz L.S.Qolitsın haqqında da demək olar. O, Rusiyanın digər quberniyalarında geniş kənd təsərrüfatı fəaliyyəti ilə məşğul idi və onun Krımda geniş üzüm plantasiyalarından əldə edilən məhsulun müxtəlif şərab növləri istehsal edilirdi. Knyaz 1899-cu ildə Yelizavetpol quberniyasında satın aldığı 700 desyatin sahənin 150 desyatində üzümlük sahələri yaratmışdı (14, 8).

Həmin təsərrüfatda öz işini nümunəvi qaydalar və üsullar əsasında quran knyazın plantasyialarında 1908-ci ildə 220 min vedrə çaxır istehsal edilmişdi. 1916-cı ildə firmanın təkcə şərab məhsulları ilə ticarət dövriyyəsi 2 milyon manata yaxınlaşırdı (1, v.245).

XIX əsrin sonu – XX əsrin əvvəllərində üzümçülük təsərrüfatlarından böyük mənfəət əldə edilməsinin şahidi olan bir qrup neft sahibkarları və digər sənayeçilər də yerlərdə böyük həcmdə torpaq və üzümlük sahələri satın alaraq fəaliyyətə başladılar. Məsələn, Azərbaycanın müxtəlif qəzalarında torpaq mülklərinin alqı-satqısı ilə məşğul olan sənayeçi Arafelov qardaşları da bu yolla hərəkət etmişdilər (21, 28).

N.M.Arafelov Yelizavetpol qəzasında Zazali, Hacıkənd və digər yerlərdə, Q.M.Arafelov isə Şuşa, Cavad və başqa qəzalarda satın aldıqları torpaq mülkləri və əkin sahələrində on və yüz desyatinlərlə nümunəvi və ticarət-sənaye xarakterli fəaliyyətilə məşğul olan üzümçülük təsərrüfatları yaratmışdılar (14, 8).

Bu cür nümunəvi üzümçülük-şərabçılıq təsərrüfatının təşkili Şuşa qəzasında Muradbəyli kəndində tacir Soqomonov qardaşlarına məxsus idi. Qəzada 4000 desyatindən çox üzümlük sahələrinin olması yerli sahibkarların böyük bir hissəsinin əsas gəlir mənbəyinin məhz bu sahə olduğunu göstərirdi (3-vər.245).

Əvvəllər Soqomonov qardaşları firmasının üzümlük sahəsi 20 desyatin olduğu halda, sonrakı illərdə satınalma yolu üzümlük sahələri xeyli genişləndi və 1890-cı ildə təsərrüfat-firma daxilində şərab, araq və konyak istehsal edən zavodlar fəaliyyət göstərirdi. Firmanın nəinki Şuşa qəzasında Muradbəyli, Ağdam kəndlərində, habelə Qori, İrəvan və Tiflis şəhərlərində şərabçılıq zavodları fəaliyyət göstərirdi (16, 938).

Yenə Şuşa qəzasının Ağdam kəndində üzümçülük təsərrüfatı ilə məşğul olmağa başlayan Xublarov qardaşlarının fəaliyyəti 1870-ci illərdə Xurşudbanu Natəvanla üzümlük bağlarının icarə edilməsi haqqında müqavilə imzalanması ilə başlamışdı. İllər keçdikcə Xublarovlar üzümlük sahələrini satın almaqla öz təsərrüfatlarını və ticarət dövriyyələrini daha da genişləndirirdilər. 1892-ci ildə ticarət dövriyyəsi artıq 400 min rublu keçən Xublarovların Ağdamda, Tiflisdə

şərab məhsulları istehsal edən zavodları, Moskva və s. şəhərlərdə satış anbarları var idi ( 22, 26; 18, 9-10).

Xublarovların üzümlük sahələrini satın alaraq təsərrüfat fəaliyyətlərini genişləndirməsi və ticarət dövriyyəsini milyon manatdan yuxarı qaldırması XX əsrin ilk on ilində və müharibə ərəfəsində də davam etmişdi. Ağdamda firmanın bir neçə sahibkardan üzüm bağlarını, Daş karxanası adlanan yerdəki üzüm bağını, Cavad qəzasında «Şahvəlilər» adlı mülkü satın alaraq öz təsərrüfatlarının böyütməsi, habelə qonşu sahibkarların üzüm bağlarını icarə etməsi və hazır məhsul, çəkilmiş şərab məhsulunu satın alması onların gəlirlərinin dinamik olaraq artırılması mənbələri idi (9, 226-228).

Bu adı çəkilən sahibkarlardan başqa Azərbaycanda sahibkar kəndində Pirimovlar, Arunovlar və başqaları da üzümçülük təsərrüfatlarında isteshalın təşkili burada əmtəə-kapitalist münasibətlərinin yüksək inkişaf səviyyəsindən xəbər verirdi (4). Şuşa qəzasının Şelli kəndində əvvəlcə 30 desyatin üzümlük sahəsi olan Pirimovlar ailəsi qonşu sahibkar-mülkədarların və kəndlilərin üzümlük sahələrini satın alaraq və burada işləri əmtəə-kapitalist təsərrüfatının tələblərinə uyğun qurarsa, artıq XIX əsrin 90-cı illərində öz illik ticarət dövriyyələri 500 min manata çatdırmağa nail olmuşdular (17, 5-6). Pirimovların istehsal etdikləri müxtəlif içki növləri Moskva, Peterburq, Odessa, Riqa və s. şəhərlərdə uğurla satılırdı.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (АРДТА).f.287,siy.1,iş 9,
2. ARДТА. f.187, siy.1, iş 769.,vər.7
3. ARДТА. f.416, siy.1, iş 75., vər.245
4. BDU-nun Xəbərləri. Humanitar elmlər seriyası. 2011. №1, s. 109-115.
5. T.T.Vəliyev. XX əsr Azərbaycan tarixi. II c., Bakı: Təhsil, 2009. 560 s.
6. Вестник Виноделия, 1893, № 9.
7. Вестник Виноделия, 1912, № 5.
8. Вестник Виноделия., 1914, №9.
9. Вестник финансов, промышленности и торговли. 1900, т. 4.
10. Гасанов Г.Н. Из истории Североазербайджанской деревни в конце XIX – начале XX вв. Баку: Тахсил, 2007, 215 s.
11. Государственный исторический Архив России в Санкт-Петербурге (ГИА РФ). ф.1268, оп.25, д.42.
12. ГИА РФ., ф. 1284, оп. 223,д. 125.
13. ГИА РФ., ф.574 , оп. 1, д. 759.
14. ГИА РФ., ф.170, оп. 2 , д. 2406.
15. ГИА РФ., ф.587 , оп.2 ,д. 977.
16. ГИА РФ., ф. 170, оп.2 ,д. 938.
17. ГИА РФ., ф.575 , оп. 2,д. 2092.
18. ГИА РФ., ф. 170, оп. 2,д. 54.
19. «Кавказское сельское хозяйство» qəz., 1898, № 252.
20. «Кавказское сельское хозяйство» qəz., 1895, № 74.
21. «Кавказское сельское хозяйство» qəz., 1901, № 425.
22. «Кавказское сельское хозяйство» qəz., 1903, № 492.
23. «Кавказское сельское хозяйство» qəz., 1901, № 380.
24. Исмаилов М.А. Сельское хозяйство Азербайджана в начале XX века. Баку: Элм, 1960, 127 s.

25. Кавказский вестник практического садоводства 1902, №110, с. 6-7.
26. Мочалов В.Д. Крестьянское хозяйство в Закавказье к концу XIX в. М.: Наука, 1958, с. 358
27. Обзор винокуренной промышленности в Закавказском крае за 1900 г., IV Т., Тифлись: 1901 г., с. 222-224.
28. Сборник сведений по виноградарству и виноделию на Кавказе. Тифлис: 1896, вып.5, с. 17-18.
29. Статистический ежегодник на 1911 и1912 гг. Тифлись: 1912 г. раздель 7, с. 126 -130
30. Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в. Баку: 1956
31. Экономический вестник Азербайджана. Баку, 1930., №1-3., 62-63.

## РАЗВИТИЕ ТОВАРНО-КАПИТАЛИСТИЧЕСКОГО ПРОИЗВОДСТВА В ВИНОГРАДАРСТВЕ ВО ВЛАДЕЛЬЧЕСКОЙ ДЕРЕВНЕ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА В НАЧАЛЕ XX ВЕКА

**Ф.Э.БАХШАЛИЕВ**

### РЕЗЮМЕ

В рассматриваемый период одна из важных особенностей развития товарного производства во владельческой деревне Северного Азербайджана являлось увеличение доли участия помещиков и других собственников в общем количестве сельскохозяйственных товаров. Со временем их хозяйства все больше и больше носили капиталистический характер. Интенсивная обработка пахотных земель с помощью технических оборудований, в том числе железных плуг и других средсв, ускорили развитие товарно-капиталистических отношений во владельческой деревне Северного Азербайджана, в том числе в виноградарстве. В рассматриваемый период самый главный итог развития товарно-капиталистического производства во владельческой деревне был в том, что товарное производство уже стало носить промышленный характер.

**Ключевые слова:** капиталист, развитие, деревня, Северный

## THE DEVELOPMENT OF CAPITALIST RELATIONS IN THE POSSESSORY VILLAGES OF NORTHERN AZERBAIJAN IN THE EARLY XX CENTURY

**F.E.BAKHSHALIEV**

### SUMMARY

The article notes that, in the early twentieth century under the new conditions there were significant changes in the possessory village. On the basis of these changes capitalist relations developed, the use of hired labor accelerated. In addition, landowners and lords in their farms applied more progressive and effective management practices. The article notes that the development of capitalist relations in the possessory villages, aggravated social problems.

**Key words:** capitalist, development, village, Northern